**N.R.İSMAYILOVA**
*pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim*
*e-mail: niay.83@mail.ru*
**:https://orcid.org/0000-0002-0857-7475**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı ş., Nəsimi r., Koroğlu Rəhimov, 13)

**10.62021/0026-0028.2025.2.324**

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİALLAŞMASINDA OYUN VƏ OYUNCAQLARIN PEDAQOJİ ƏSASLARI

***Xülasə.*** *Məqalədə məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında oyun və oyuncaqların pedaqoji əsaslarından bəhs edilir. Qeyd olunur ki, insanın şəxsiyyət olaraq yetişib və cəmiyyətdə özünəməxsus yer tutması mühüm bir məsələdir. Ona görə də insan cəmiyyətə uyğunlaşır, fəaliyyət göstərir. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların emosiyaları düzgün təqdim etməsində, malik olduqları bacarıqları nümayiş etdirmələrində oyun prosesi xüsusi əhəmiyyət daşıyır. Mühüm bir məqamı da bildirim ki, oyun prosesi o qədər də fəallıq göstərə bilməyən, özünəinamı zəif olan uşağı da yüksək şəkildə formalaşdıra bilir. Ona görə də uşaq bu fəaliyyət zəminində ünsiyyəti, fəallığı, özünəinamı öyrənir, həm də öz həmyaşıdlarının fikirlərinə hörmətlə yanaşır və kollektivçiliyə alışır.*
*Oyun prosesində uşaq ətraf aləmi özü üçün sanki "kəşf edir". Belə ki, o, diqqətini bir yerə toplamağı, qarşısına qoyduğu məqsədə çatmağı öyrənir, eyni zamanda, ölçü, həcm, forma, məsafə və s. ilə əlaqədar olan məlumatları mənimsəmiş olur.*

***Açar sözlər:*** *məktəbəqədər yaş, uşaq, sosiallaşma, oyun, oyuncaq, pedaqoji əsas*

Məktəbəqədər yaşlı uşaqlarda yeni fəaliyyət növü – oyun həlledici rol oynayır. Bu prosesdə uşaq oyun qaydalarına tabe olmaqla yanaşı, həm də oyunu başqa uşaqlarla həyata keçirməyə başlayır. Qaydaları pozduğu üçün uşaq cəzalandıra və düz oynadığı üçün mükafatlandırıla bilər. Oyun prosesində uşaq oyunu məqsədini, sujetini, oyunun vasitələrini və oyun davranışlarını mənimsəmiş olur. Oyunun sujetini mənimsəmə prosesinin olması uşağı planlı fəaliyyətə sövq edir. Uşaq nə qədər çox oynayarsa, dərketmə, yetkinləşmə, həyata pozitiv münasibət bir o qədər yüksək olur.

Oyuncaq sözünün mənası müxtəlif olması ilə seçilir. Belə ki, bəzi insanlar üçün bu sözün mənası bər-bəzək, bəziləri üçün isə əyləncə olaraq işlədilir.

Oyuncaqlar uşaq oyunlarının atributu hesab olunur. Oyuncaqlar uşaq oyunlarını daha məzmunlu və əhəmiyyətli etməsi ilə seçilir. Çünki oyuncaqlar uşaqların ətraf aləmi dərk etməsində, müstəqil fəaliyyət göstərməsində, nitqin, təfəkkürün inkişafında, dünyagörüşünün formalaşmasında mühüm yer tutur. Oyuncaq uşaqların fiziki, əqli, əxlaqi, estetik və əmək tərbiyəsində əsas rol oynayır. Bu baxımdan böyüklərin həyatında məişət əşyaları nə qədər qiymətlidirsə, uşaqların da həyatında oyuncaqlar bir o qədər qiymətlidir. Oyuncaqlar uşaqlarda əşyalarla davranmağı, onlardan harada və necə istifadə etməyi öyrədir.

Oyuncaqlar ayrı-ayrı ictimai formasiyalarda müxtəlif formalarda olmuşdur. Belə ki, oyuncaqlar hər tarixi dövrün ictimai-siyasi tələbinə uyğun olaraq dəyişmişdir. Həmin sinfin uşaqları üçün oyuncaqlar qiymətli materiallardan, yoxsul uşaqlar üçün adi materiallardan hazırlanmışdı. Arxeoloji qazıntılar zamanı tapılan oyuncaqlar həmin dövrün ictimai həyat tərzini əks etdirir. Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq isə belə fərqlər aradan götürülmüş və oyuncaq fabrikində onun kütləvi istehsalına başlanmışdı.

Oyuncağın yaranma tarixi qədimdir. Hər tarixi dövrün özünəməxsus oyuncağı olmuşdur. İlk oyuncaqlar təbii materiallar hesab edilirdi. Sonradan sənətkarlar öz uşaqları üçün xırda oyuncaqlar düzəltmişlər, lakin o oyuncaqlar əmək alətlərinin kiçildilmiş forması idi. Yəni kiçik bel, oraq şəklində olub. Bu balaca alətlərlə uşaqlar müəyyən əmək tapşırıqlarını yerinə yetirir, həm də oynayırdılar. Əvvəllər ovçu alətləri – ox, kaman, qılınc, qalxan və s., daha sonra isə quş, adam, heyvan fiqurları düzəltmişlər. Sonralar valideynlər uşaqlarına özləri oyuncaqlar hazırlamağa başlayıblar. Oyuncaqlar uşaqlarda əşyalara qayğılı münasibət yaradır. Eyni zamanda valideyn-uşaq münasibətini də yaxşılaşdırır və onlar arasındakı əməkdaşlığın və xoş münasibətin yaranmasına səbəb olur.

Eyni zamanda istedadlı dülgərlər, dəmirçilər oyuncaq alətlərinin kiçildilmiş formasını düzəltmişlər. Bu, valideynlərin diqqətini cəlb edir. Onlar da övladları üçün bu cür oyuncaq alətlər əldə etməyə səy göstərmişlər.

Oyuncaq istehsalı dövlət səviyyəsində inkişaf etməyə başlayır. Odur ki, dövlət tərəfindən oyuncaq fabrikləri yarandı. Bu fabrik estetik gözəlliyə malik, uşağın zövqünü oxşayan, müsbət əxlaqi keyfiyyətlər tərbiyə edəcək rəngarəng oyuncaqlar istehsal edirdi.

Oyuncaq bütün tarixi dövrlərdə oyunla – uşağın səciyyəvi simasını: ağlını, fiziki və mənəvi keyfiyyətlərini formalaşdıran aparıcı fəaliyyətlə bağlı olmuşdur. Lakin konkret olaraq hər dövrün tarixi şəraiti oyuncaqların məzmununa öz təsirini göstərmişdir.

Misirin, Yunanıstanın və Romanın qədim quldarlıq cəmiyyəti sonrakı nəsillərə qiymətsiz maddi və mənəvi mədəniyyət xəzinəsi saxlamışdır. Biz qədim dünyanın ayrılmaz hissəsi olan, dövrün özünəməxsus illüstrasiyası kimi çıxış edən oyuncaqları öyrənərkən də bir çox maraqlı faktlara rast gəlirik.

Bu gün olduğu kimi, qədimdə də uşağın ilk oyuncağı zınqrovlu oyuncaq olmuşdur. Qədim Yunanıstanda və Romada zınqrovlu oyuncaqları yeni doğulanlara verirdilər. Bu zınqrovlara vuraraq, analar və dayələr laylalar oxuyurdular. Bundan başqa bu əşyalar başqa bir məqsəd də daşıyırdı. İbtidai icma dövründən belə bir inanc qalmışdır ki, şaqqıldaqlar öz səsi ilə pis ruhları qovur və bununla da uşağı qoruyurlar. Qədim Yunan şəhəri olan Pompeydə qazıntılar zamanı çoxlu zınqrovlu oyuncaqlar tapılmışdır. Bunlar müxtəlif növlü zınqrovlu oyuncaqlar idi: şaqqıldaqlar, kretalalar, sistralar. Pompeydə tapılan şaqqıldaqlar zəng bərkidilmiş tutacaqlı diskdən ibarətdir. Kretala bir küncdə birləşmiş taxta və ya metal lövhədən düzəldilirdi. Sistranın da düzəlməsi belə sadə idi. İki eninə özəkdən hər birində üç metal lövhə var ki, özək tərpəndikcə səs çıxarırlar.

Qədim Misirdə də istifadə olunan oyuncaqlar müxtəlifliyi və uşaqlara təsir baxımından seçilir.

Qədim Misirin bizə məlum olan ən qədim oyuncaqları e.ə. 3 mininci illərin ortalarına aiddir. Bunlar taxtadan uzun saçlı inəklərdir. Qədim Misirdə biz ilk dəfə asan hərəkət mexanizmi olan oyuncaqlara rast gəlirik. Bunlar "Timsah" və "Pələng"dir. Qədim ustalar onları böyük davranış və xarakter bilikləri ilə təsvir etmişdirlər. Bu miniatür taxta oyuncaqları uşağın əli ilə hərəkətə keçən asan məftil mexanizmi ilə ağızlarını açırdılar. Xəmir yoğuran qul təsvirli oyuncaq maraqlıdır. Fiquru sapa bağlasaq, o maili lövhə üzrə yuxarı-aşağı hərəkət edir. "Xəmir yoğuran" milli oyuncaq prototipidir. Bu qədim konstruksiya prinsipindən yerli milli oyuncaq ustaları da dəfələrlə istifadə etmişdirlər [4, s.33].

Nisbətən bir qədər gec vaxtlarda oyuncaqlarda at obrazı yarandı. Misirlilər araba və atların varlığını e.ə. 1-ci minillikdə Misiri işğal edən köçəri tayfalardan öyrənmişdirlər. E.ə. 5-ci əsrdə düzəldilmiş yellənən atlar məlumdur. Atın hazırlanması Qədim Yunanıstan uşaqlarının ən sevimli oyuncaqlarından biri idi. Miniatür at və atlıların əksəriyyəti gildən hazırlanırdı. At obrazı ümumiləşmiş verilirdi, lakin o realistik elementlərə malik idi.

Əlbəttə ki, bir çox taxta oyuncaqlar bizə gəlib çatmamışdır, yalnız gildən, sümükdən və metaldan olanlar saxlanmışdır. Ermitajda saxlanılan miniatür antik qabda uzun dəstəkli və ox üzərində dörd künclü, içində uşaq otura biləcəyi kiçik səbətli iki çarxlı uşaq yelləncəyi təsviri vardır.

Qədim keçmişdə bizə məlum olan oyuncaq növü kukla yaranmışdır. Ən qədim Misir kuklasının 4 min yaşı var. Bunlar nazik lövhələrdən kəsilirdi və geyimi simvolizə edən həndəsi naxışlarla bəzədilirdi. Kuklaların başı taxta və ya sap muncuqlarla bəzənirdi. Lakin bu kuklalar uşaqlara deyil, böyüklərə xidmət edirdi və həmin dövrün müxtəlif din formaları ilə bağlı idi. Qədim Misir kuklaları qəbir hədiyyələrindən idi və ölənin tənhalığını bəzəmək üçün tələb edilirdi. Hesab olunurdu ki, insan təsvirləri canlana və insan taleyinə təsir edə bilər. Buna görə də kuklalar çox vaxt həkkak qələmi ilə düzəldilirdi. Belə ki, qorxurdular ki, kukla məqbərədən çıxıb qaçar. Antik Yunan və Roma bizə yetərincə çox sayda kuklalar saxlamışdırlar. Onlardan çoxu sitayiş xarakteri daşımağa davam edir. Qızlar bu kuklaları ərə gedənə qədər qoruyub saxlayırdılar və toy zamanı Artemida və Venera ilahələrinə hədiyyə kimi gətirirdilər. Bunlar gildən və ağacdan hazırlanırdılar və çox vaxt hərəkətli olurdular. Əlləri və ayaqları saplar və çubuqların köməyi ilə bədənlərinə birləşdirilirdi. Zadəgan ailələrin uşaqları üçün kuklalar daha incəliklərlə, bahalı materialdan düzəldilirdi [4, s. 41].

Artıq XIII əsrdə fransız kuklaları moda qanunvericiləri oldular və həddən artıq baha qiymətə idilər. Onlar üçün tam şəraitli kukla evləri düzəldilirdi.

XIX əsrin ortalarında ilk oyuncaq istehsalçıları – kiçik kustar sexlər və fabriklər yarandı.

XIX yüzilliyin oyunu 1974-cü ildə macar memarı Erne Rubik tərəfindən hazırlanmış kubik-rubik qəbul olunur.

Rusiyada ilk kukla taxtadan hazırlanmışdır. Mərkəzi Rusiyada kətandan hazırlanmış bez kuklalar məşhurdur. Ağ üzlü qızların mütləq hörükləri olurdu, amma sifətləri olmurdu ki, ona pis ruhlar çökməsinlər.

XVII əsrdə Rusiyada milli kustar və taxta oyuncaqlar böyük inkişaf əldə etmişdilər.

Hər xalqın oyuncağı öz pedaqoji, incəsənət və texniki ənənələrinə malikdir. Bu ənənələr bir tərəfdən beynəlmiləl xüsusiyyətə malik idi, digər tərəfdən, mədəniyyətin, məişətin, pedaqogikanın milli xüsusiyyətlərini müəyyən edən cəhətlər daşıyır.

Uşaqların istifadə etdikləri hər bir əşya oyuncaq hesab oluna bilər. Oyuncaqlar ev heyvanları, müxtəlif əşyalarla bağlı olur. Oyuncaqlardan istifadə etmək hər yaş dövründə uşaqların bəyəndikləri əyləncə növüdür. Bu baxımdan müxtəlif materiallardan oyuncaqların maraqlı olması üşün istifadə olunursa, bu vacib məsələdir.

“Oyuncağın yaranma tarixi də qədimdir. Oyuncaq sözünün nə zaman yaranması haqqında müxtəlif fikirlər vardır. Belə qeyd olunur ki, bu sözdən ilk dəfə XIV əsrdə istifadə olunub.

Ətraf aləmin dərk olunması zamanı oyuncaqların və oyunun mühüm olması xüsusilə seçilir. Yəni oyuncaqlar uşaqların daha sağlam böyüməsinə, eyni zamanda, onlara gələcəkdə lazım ola biləcək bacarıqlara yiyələnməsinə kömək edir” [5].

Oyuncaq yalnız 19-cu əsrin 20-ci illərinin sonlarında elmi-tədqiqat obyekti olmuşdur. Oyuncağa, ilk növbədə, nə incəsənətşünaslar, nə pedaqoqlar deyil, etnoqraflar maraq göstərmişdirlər, hansı ki, onlar oyuncaqları ibtidai mədəniyyətin qədim xalqlarından bugünkü günümüzə qədər mədəniyyət və məişət materialları abidəsi kimi toplamış və öyrənmişdirlər. Asiya, Afrika, Amerika xalqlarının oyuncaq kolleksiyaları Paris Pedaqoji muzeyində, Nurnberq muzeyində, Berlin, Stokholm, Paris və s. kukla muzeylərində sərgilənir.

Xalq oyuncaqlarını tədqiq edən rus tədqiqatçılarından L.Q.Orşenskini və Moskvada oyuncaqlar muzeyinin əsasını qoyan N.D.Bartramı qeyd etmək lazımdır.

Xalq oyuncağı, onun böyük ifadəliliyi və məqsədəuyğunluğu onu uşaq tərbiyəsində faydalı edirdi: o sevindirirdi, inkişaf etdirirdi, ətraf həyatı başa düşməyi öyrədirdi, oyunun inkişafına kömək edirdi. Bu xüsusiyyətlər milli oyuncaqlarda kustar sənətkarlığın yaranması ilə sonralar da saxlanılır. Və müasir xalq ustası, oyuncaq yaradıcısı əvvəlki kimi onu sevir, onunla yaşayır, onun üzərində sevgi və qayğı ilə işləyir.

Xalq oyuncağı həm də məna və qeyri-məna şəklində, lakin hərəkət, səslənmə texnikasının iti ağıllılığı və öz nağılvari dekorativ traktlığı ilə uşağın düşüncə və fantaziyasını oyadır. Bir çox oyuncaqlar əsl nağıldırlar.

Xalq oyuncağı xalqın incəliklərə diqqət edən, uşağı olduğu kimi onun maraqları və ehtiyacları ilə görən və başa düşən psixoloq olduğunu təsdiqləyir.

Xalq oyuncağı yalnız sevindirmir və əyləndirmir, yalnız estetik cəhətdən inkişaf etdirmir, eləcə də, yaradıcı oyuna vüsət verir, onu əhatə edən həyata oriyentasiya edir və uşağı əməyə və texnikaya öyrədir. Hətta şən oyuncaq da bəzən uşağa iş həyatının çətinliklərini işarə edir (nalbənd nal vurur, ev sahibəsi toyuqlara yem verir və s.), hələ uşağın müxtəlif materiallarla və əmək növləri ilə işləməyi öyrəndiyi "əl işlərini" demirik: kukla üçün paltar tikmək, ovçuluq, balıq ovu sənəti və onlarla oynamaq üçün oğlanların silah düzəltməyi, hər cür zənbil toxunuşu, və s. Bütün bunlar uşağı oyuncaqdan tədricən böyüklərin həyatındakı əməyə gətirib çıxarır.

Oyuncaqda estetiklik uşağın zövqünü qane etmək üçün heç bir qəsdli niyyət olmadan uşağa xalq yaradıcılığının böyük incəsənət mədəniyyəti gətirir.

Oyuncaq əgər cəlbedicidirsə, mənimsəmə üçün əlverişlidirsə o zaman uşaq həmin əşya ilə rahat şəkildə ünsiyyət qurmağı, ondan istifadə etməyi bacarır.

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, oyuncaq uşaqların sosial tərbiyəsi üçün çox mühümdür. Eyni zamanda oyuncaqlar vasitəsilə uşaqlar hisslərini meydana qoyur və həyatda görmək istədiklərini ifadə edirlər. Yəni burada uşaqların yaradıcı təxəyyülləri bəlli olur.

Xatırlamaq lazımdır ki, bəlkə də heç bir digər xalq yaradıcılığı növü uşağın milli cizgilərini, estetik həssaslığını, onun sevdiyi və həvəslə oynadığı milli oyuncaq kimi belə aktiv və dərin tərbiyələndirmir.

Hazırlanan oyuncaqlar, əlbəttə ki, müəyyən tələbləri özündə daşımalı idi.

Oyuncağın məzmunu tərbiyəvi xarakter daşımalı, oyuncaq insan həyatını, milli kolariti, milli hissləri özündə əks etdirməlidir. Hazırda elmin, texnikanın inkişafı ilə əlaqədar olaraq oyuncaqların da istehsal sahəsi genişlənib. Texniki oyuncaqlar uşağın özünün düzəltdiyi oyuncaqdır. Bu onlarda daha çox maraq doğurur. Oyuncaqda uşaq yaradıcılığı özünü göstərir. Valideynlər uşağın oyuncaqdan istifadə etməsinə, özləri tərəfindən hazırlanmasına şərait yaratmalıdır. Oyuncaqda yumor da olmalıdır, hərəkət də olmalıdır. Oyuncaqlar gigiyenik tələblərə cavab verməlidir.

Oyuncağın növləri də müxtəlifdir. Obrazlı oyuncaqlar mahiyyət etibarilə müxtəlif olur, ona görə də onlar müəyyən növlərə ayrılırlar. Canlıları əks etdirən oyuncaqlar obrazlı oyuncaqlar adlanır. Belə oyuncaqlara sujetli oyuncaqlar da deyirlər. Onun məzmunu oyunun sujetini təşkil edir. Oyunun əsas personajı canlılar olur. Obrazlı oyuncaqlar içərisində kukla əsas yer tutur.

F.Frebel analar haqqında deyirdi ki, xalqın taleyi dövləti idarə edənlərdən daha çox, anaların, qadınların əlindədir [2, s. 76].

Qadın cəmiyyətdə aparıcı, yaradıcı qüvvə olduğu kimi, kukla da oyunda aparıcıdır. Kukla uşaqlar üçün sevinc mənbəyidir. Onlar kukla ilə söhbət edir. Kuklalar ana, həkim, xəstə rollarını ifa edir, kuklalar, eyni zamanda, hər xalqın milli xüsusiyyətlərini əks etdirir. Kuklaları bir yerə toplasaq, onun görkəmindən hansı xalqa mənsub olduğu bilinər. Oyuncaqlar içərisində quzu, dəvə, keçi, ayı kimi oyuncaqların da öz yeri var. Bu oyuncaqlardan müxtəlif oyunlarda istifadə edilir.

Texniki oyuncaqlar məzmuna görə müxtəlif olur. Maşın, qaldırıcı kran, təyyarə, telefon, radio, kompüter, fotoaparat və s. bu sıraya daxildir.

Konstruktiv sökülüb-yığılan oyuncaqlar, tikinti oyuncaqları uşaqlar üçün daha maraqlıdır. Belə oyuncaqlar uşaqlarda erkən yaşdan texnikaya maraq tərbiyə etməklə yanaşı, həm də onlarda təfəkkürü və yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Texniki oyuncaqlar elektriklə, barmaqla, kənardan pultla idarə edilir: təyyarə, gəmi, maşın, avtobus. Uşaqlar bu oyuncaqlarla oynayarkən həmin nəqliyyat vasitələrindən harada istifadə edildiyini, onun insanlara harda lazım olduğunu öyrənir. Çox zaman özləri də belə bir oyuncaqlar düzəldir. Yəni iki taxtanı birləşdirərək təyyarə hazırlaya bilirlər. Sonra isə kağızdan gəmi düzəldib suya buraxırlar. Texniki oyuncaqlar içərisində ən geniş yayılmış konstruktiv oyuncaqlardır.

Əyləncəli oyuncaqlar. Bu oyuncaqlar gülüş yaradan oyuncaqlardır. Belə oyuncaqlara müxtəlif canlıların (insan, heyvan, quş və s.) fiqurları daxildir. Onlar xalq yaradıcılığı ilə çox bağlıdır. Kiçik yaşlı uşaqlar üçün bu oyuncaqların çıxardığı səs, göstərdikləri hərəkətlər maraqlıdır. Böyük qrup uşaqlar isə həmin oyuncaqların mexanizmi ilə daha çox maraqlanırlar. Burada qarışıq oyuncaqlar götürülür. Bu tamaşa xarakteri daşıyır. Uşaqlar onlarla həvəslə oynayır, onların qeyri-adi hərəkəti uşaqlarda gülüş doğurur.

Maskarad oyuncaqları. Bu oyuncaqlardan bayramlarda, yeni il şənliklərində istifadə edirlər. Müxtəlif heyvan fiqurlarını əks etdirən maskalar, paltarlar burada olur və belə maskalar indi daha çoxdur. Dovşan, tülkü, ayı, canavarı təmsil edən kostyumlardan uşaq bağçasında istifadə olunur.

Motorlu oyuncaqlar. Bu oyuncaqlar çox hərəkət tələb edir. O, uşaqların hərəkət fəaliyyətini artırır. Bu oyuncaqları aşağıdakı kimi qruplaşdırmaq olar:

I qrup oyuncaqlar sensor motorlu oyuncaqdır. O, əl, barmaq hərəkətlərini inkişaf etdirir. Cəldliyi, gözəyarı ölçməyi, məqsədə çatmağı, hədəfi düzgün nişan almağı öyrədir (muncuqlar, fırfıralar).

II qrup oyuncaqlar çiyin, qol əzələlərini inkişaf etdirir, hərəkəti tənzim edir, əzələləri möhkəmləndirir.

III qrup oyuncaqlara ayaq, qarın əzələlərinin hərəkətlərini möhkəmləndirən futbol, basketbol, çəmbər üçün lazım olan idman avadanlıqları daxildir.

IV qrup oyuncaqlar kollektiv oyunlar üçün nəzərdə tutulur. Bunlardan kütləvi yarışlarda istifadə olunur (basketbol, voleybol topları) [3, s.66].

Qeyd etdiklərimizlə yanaşı, oyuncaqların saxlanılması da aktuallıq kəsb edir. Oyuncaqlar xüsusi guşələrdə, gigiyenik şəraitdə saxlanılır. Oyuncaqlar elə şəraitdə saxlanılmalıdır ki, uşaqlar onlardan istədikləri vaxtlarda istifadə edə bilsinlər. Oyuncaqlar gigiyenik tələblərə uyğun materiallardan hazırlanmalıdır. Həm də oyuncaqların tərtibi zamanı rəngi yayılmayan və asanlıqla yuyula bilən materiallardan istifadə edilməlidir. Oyuncaqlar asanlıqla sınan, bəzi parça materiallarından və şüşədən olmamalıdır.

***İşin elmi nəticəsi:*** Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında oyun və oyuncaqlardan istifadə mühüm əhəmiyyətə malikdir. Çünki həmin məsələlər məşğələnin daha maraqlı və rəngarəng keçməsində vacibdir. İşdə məhz həmin müxtəlif məqamlar təqdim olunur.

***İşin elmi yeniliyi:*** Tərbiyəçi-müəllim məşğələdə özünün də yaratdığı və icad etdiyi oyunları və oyuncaqları tətbiq edə bilər.

***İşin praktik əhəmiyyəti:*** Əldə olunmuş nəticələr müxtəlif məşğələlərdə tərbiyəçi-müəllimlərin istifadəsi üçün tövsiyə edilir. Tədqiqatdan əldə edilmiş nəticələrdən dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodik ədəbiyyatın və elmi-tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

**Ədəbiyyat**


1. Əliyeva, Ş. İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması. Dərs vəsaiti / Ş.Əliyeva, X.Həmidova, S.Mustafayeva. – Bakı, – 2020. – 84 s.
2. Suxomlinski, V.A. Ürəyimi uşaqlara verirəm / V.A.Suxomlinski, – Bakı: Maarif, – 1979. – 324 s.
3. Игра и дошкольник / под ред. Т.И.Бабаевой, З.А.Михайловой. – СПб., – 2008, – 120 с.
4. Флерина, Е.А. Игра и игрушка: пособие для воспитателя детского сада / Е.А.Флерина, – М.: Просвещение, – 2000, – 280 с.
5. https://az.wikipedia.org/wiki/Oyuncaq

**N.R.Ismayilova**

**Pedagogical Basis of Games and Toys in the Socialization of Preschool Children**

***Summary***

The article discusses the pedagogical foundations of games and toys in the socialization of preschool children. It is noted that it is important for a person to grow as a person and take a unique place in society. Therefore, a person adapts to society and acts. In this regard, the game process is of particular importance in helping preschool children correctly present emotions and demonstrate the skills they have. I would also like to note an important point that the game process can highly form a child who is not very active and has low self-confidence. Therefore, on the basis of this activity, the child learns communication, activity, self-confidence, and also respects the opinions of his peers and gets used to collectivism.

In the game process, the child "discovers" the world around him for himself. Thus, he learns to focus his attention on one place, achieve the goal he sets, and at the same time, he masters information related to size, volume, shape, distance, etc.

***Key words:*** *preschool age, child, socialization, game, toy, pedagogical basis*

**Н.Р.Исмайлова**

**Педагогические принципы игр и игрушек в социализации детей дошкольника**

***Резюме***

В статье рассматриваются педагогические основы игр и игрушек в социализации детей дошкольного возраста. Отмечается, что для человека важно вырасти как личность и занять особое место в обществе. Поэтому человек приспосабливается к обществу и действует. С этой точки зрения игровой процесс имеет особое значение для детей дошкольного возраста, позволяющих правильно подать свои эмоции и продемонстрировать свои умения. Также хотелось бы отметить важный момент, что игровой процесс может в высокой степени формировать малоактивного и неуверенного в себе ребенка. Поэтому на основе этой деятельности ребенок учится общению, активности, уверенности в себе, а также уважает мнение сверстников и привыкает к коллективизму.

В ходе игры ребенок буквально «открывает» окружающий мир. Так, он учится концентрироваться на одном месте, для достижения цели, которую он перед собой поставил, и в то же время он узнает о размере, объеме, форме, расстоянии и т. д., усваивает связанную с ним информацию.

***Ключевые слова:*** *дошкольный возраст, ребенок, социализация, игра, игрушка, педагогическая основа*

*Rəyçi: ped.f. d., dos. S.Əliyeva*

*Redaksiyaya daxil olub: 02.04.2025*